## SON NƏŞR III SİNİF AZƏRBAYCAN DİLİ DƏRSLİYİNİN LÜĞƏT ÜZRƏ İŞİN TƏŞKİLİNDƏ İMKANLARI

***Qasımova Maya Rəhim qızı***
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan*
*mobil: 0503572243*
*maya0866@gmail.com*
*https://orcid.org/ 0000-0001-9116-4331*

**Xülasə.** Ana dili üzrə fənn kurikulumuna əsasən 3-cü sinfin sonunda şagird mətndə rast gəldiyi sözlərin mənasını müəyyən etməyi, söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirməyi, bədii ifadələrin nitqdəki rolunu dəyərləndirməyi, söz və ifadələri izah etmək bacarığını nümayiş etdirməlidir. Kurikulumda qoyulan bu tələblər şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üzərində ciddi iş aparmağın vacibliyini sübut edir. Çünki sözün leksik-semantik mənasını bilmədən yuxarıda sadalanan bacarıqları nümayiş etdirmək mümkün deyil.
Şagirdlərin söz ehtiyatının zənginləşdirilməsi ilə bağlı məsələlər Azərbaycan dili kurikulumunda "Oxu" məzmun xəttinin ikinci əsas standartı kimi təsbit olunmuşdur (2.1.Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir). Şagirdlərin artan inkişaf səviyyəsinə uyğun olaraq, qeyd olunan əsas standarta aid alt standartlarda ifadə olunmuş bacarıqlar sinifdən-sinfə keçdikcə mürəkkəbləşir. Alt standartların təhlilinə əsasən, ibtidai təhsilin sonunda şagird şifahi və yazılı nitqində yaxınmənalı, əksmənalı sözlərdən, bədii ifadələrdən, məqamına görə uyğun nitq etiketlərindən, terminlərdən istifadə etməyi bacarmalı, çoxmənalı sözləri omonimlərdən fərqləndirməli və yerli-yerində işlətməlidir. Şagirdlərin nitqinin leksik tərkibinə qoyulan bu tələbləri reallaşdırmaq üçün bu sahədə dil kursunun bütün bölmələri ilə əlaqələndirilmiş, ciddi şəkildə planlaşdırılmış, sistematik olaraq həyata keçirilən iş aparılmalıdır.
Məqalədə son nəşr (2022-ci il) III sinif Azərbaycan dili dərsliyində şagirdlərlə lüğət üzrə işin təşkili imkanlarının araşdırılması məqsəd qoyulmuşdur. Dərslik problem baxımından geniş təhlilə cəlb edilmiş, lüğət üzrə işin təşkilində ibtidai sinif müəllimlərinə kömək məqsədilə konkret yollar, üsul və priyomlar təklif edilmişdir. İbtidai sinif müəllimi bu priyomlardan istifadə edərək dərsliyin "Söz boğçası" rubrikasında verilmiş sözləri III sinif şagirdlərinin fəal lüğətinə daxil edə bilər. Bunun üçün o, hər dərsdə şagirdin lüğətinə hansı sözləri daxil edəcəyini, əvvəllər öyrənilmiş hansı sözləri möhkəmləndirəcəyini əvvəlcədən müəyyənləşdirməli, həmçinin mənimsənilmiş sözlərin və onların yeni mənalarının müxtəlif çalışmalar, nitq situasiyaları, şifahi və yazılı inşalar və s. iş növləri vasitəsilə fəallaşdırılmasını da diqqət mərkəzində tutmalıdır.
**Açar sözlər:** ibtidai sinif şagirdləri, lüğət üzrə iş, III sinif Azərbaycan dili dərsliyinin imkanları, kurikulum.

## OPPORTUNITIES FOR THE ORGANIZATION OF WORK ON VOCABULARY IN THE TEXTBOOK OF THE AZERBAIJANI LANGUAGE OF THE LAST EDITION III GRADE

**Abstract:** According to the native language curriculum, by the end of the 3rd grade, the student must demonstrate the ability to determine the meaning of words found in the text, distinguish between the literal and figurative meaning of words, evaluate the role of means of artistic expression in speech, explain words and expressions. These requirements, set out in the curriculum, prove the importance of

serious work on enriching the vocabulary of students. After all, without knowledge of the lexical and semantic meaning of a word, it is impossible to demonstrate the skills listed above.
Questions related to the enrichment of students' vocabulary are set as the second basic standard of the content line "Reading" in the curriculum of the Azerbaijani language (2.1. Demonstrates understanding of the meaning of new words encountered). In accordance with the increase in the level of development of students, the skills expressed in substandards related to the specified basic standard become more complicated from class to class. According to the analysis of substandards, upon completion of primary education, a student should be able to use synonyms and antonyms, figurative expressions, appropriate speech etiquette and terms in oral and written speech, distinguish polysemantic words from homonyms and use them at the appropriate moment. To implement these requirements for the lexical composition of students' speech, seriously planned and systematically implemented work in this direction must be carried out, which is connected with all sections of the language course.
The aim of the article is to study the possibilities of the latest edition textbook on the Azerbaijani language for the 3rd grade (2022) in organizing vocabulary work with students. The textbook was analyzed in detail from the point of view of the problem and specific ways, methods and approaches were proposed that will help primary school teachers organize vocabulary work. Using these techniques, primary school teachers can include the words given in the Vocabulary section of the textbook in the active vocabulary of 3rd grade students. To do this, he must determine in advance which words will be included in the student's vocabulary in each lesson, which previously learned words will be fixed, and he must also focus on activating the acquired words and their new meanings with the help of various exercises, speech situations, oral and written compositions, etc. types of work.
**Key words:** primary school students, vocabulary work, possibilities of the 3rd grade Azerbaijani language textbook, curriculum.

**Giriş.** Lüğətin zənginləşdirilməsi dil tədrisinin əsas vəzifələrindən biri və ana dilinin mənimsənilməsində vacib amillərdəndir. Zəngin lüğət sərbəst kommunikasiya, duyğu və düşüncələri dəqiq və aydın ifadə etmə bacarıqlarının formalaşmasında, ünsiyyətdə qarşılıqlı anlaşmanın baş verməsində mühüm rol oynayır. Fərdin nitq fəaliyyətində dilin bütün funksiyalarını (kommunikativ, idraki, məlumatverici, tənzimləyici və s.) reallaşdırması bu və ya digər şəkildə lüğətinin dolğunluğu ilə əlaqəlidir.
Ana dili üzrə fənn kurikulumuna [2] əsasən 3-cü sinfin sonunda şagird aşağıdakı alt standartlarda təsbit olunmuş bacarıqlara yiyələnməlidir:
2.1.1. Mətndə rast gəldiyi sözlərin mənasını müəyyən edir.
2.1.2. Söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirir.
2.1.3. Bədii ifadələrin nitqdəki rolunu dəyərləndirir.
2.1.4. Söz və ifadələri izah etmək bacarığını nümayiş etdirir.
Kurikulumda qoyulan bu tələblər şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üzərində ciddi iş aparmağın vacibliyini sübut edir. Çünki sözün leksik-semantik mənasını bilmədən qeyd olunan bacarıqları nümayiş etdirmək mümkün deyil.
**Bulğular ve tartışma.** Qarşımıza son nəşr (2022-ci il) III sinif Azərbaycan dili dərsliyində [4;5] şagirdlərlə lüğət üzrə işin təşkili imkanlarının araşdırılmasını məqsəd qoyduğumuz üçün həmin dərsliyi təhlilə cəlb etdik. Dərslikdə digər rubrikalarla yanaşı, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi məqsədini daşıyan “Söz boğçası” rubrikası da yer almışdır. Bu rubrikada 3-cü sinif şagirdləri dərslikdəki bədii və informativ mətnlərdə rastlaşdıqları mənası çətin sözlərlə tanış olurlar.

Ümumiyyətlə, dərslikdəki mətnlər şagirdlərin lüğət ehtiyatının zənginləşməsində əsas mənbə rolunu oynayır. Belə ki, şagirdlər tanış olduqları əsərlərin dilinin təhlili sayəsində sözlərin sinonimliyi, antonimliyi, çoxmənalılığı, məcaziliyi, eləcə də obrazlılığı haqqında təsəvvür əldə edirlər. Qeyd etməliyik ki, ötən illərin 3-cü sinif dərsliklərində N.Gəncəvinin, S.S.Axundovun, C.Məmmədquluzadənin, İ.Əfəndiyevin, A.Şaiqin, S.Vurğunun, M.Seyidzadənin, H.Ziyanın, İ.Tapdığın, M.Dilbazinin, N.Rəfibəylinin, T.Elçinin və digər söz ustadlarının əsərlərinin yer alması şagirdlərin ana dilini yüksək səviyyəli bədii ədəbiyyat nümunələri üzərində mənimsəməsinə imkan yaradırdı. Əfsuslar olsun ki, son nəşr 3-cü sinif dərsliyində görkəmli söz ustadlarının əsərləri barmaqla sayılacaq dərəcədədir. Bunlardan C.Məmmədquluzadənin “İki alma”, A.Şaiqin “Xilaskar” hekayələrini, N.Gəncəvinin “Yeddi gözəl” poeması əsasında yazılmış “Fitnə” mətnini, “Oğlum Məhəmmədə nəsihət” şeirini, M.Seyidzadənin “Sığırçın və göyərçin” təmsilini nümunə göstərmək olar.

Bundan əlavə, dərsliyin 1-ci hissəsinin 25-ci səhifəsində “Bunları bilməliyik” rubrikasında “Sadə və düzəltmə sözlər”, 2-ci hissəsinin 64-cü səhifəsində “Yadda saxla” rubrikasında “Bənzətmə”; 68-ci səhifəsində “Sözün həqiqi və məcazi mənası” ilə bağlı nəzəri məlumat və müxtəlif növ çalışmalar da yer almışdır.

Dərsliyin 1-ci hissəsi: ***1. Fərd və toplum, 2. Dünyamızı tanıyaq, 3. Qəribə heyvanlar, 4. Təbii fəlakətlər;*** 2-ci hissəsi isə: ***5. İxtiralar, 6. Unudulmaz qəhrəmanlar, 7. Odlar yurdu, 8. Hikmət xəzinəsi*** bölmələrindən ibarətdir.

Ayrı-ayrı bölmələrdə verilmiş “Söz boğça”larında şagirdlərin lüğətinə aşağıdakı sözlərin daxil edilməsi nəzərdə tutulmuşdur:

**Fərd və toplum** bölməsi – *fərd, toplum, mənəvi dəyər, davranış, pörtmək, rəsədxana, ekskursiya, maddi durum, dəhliz, fürsət, müavin, zümzümə etmək, əl-ayağa düşmək, ürəyi düşmək, boynuna almaq, dayaq olmaq, şahı, abbası, tramvay, çərəz, qanı qaralmaq, fikir götürmək, ağzına su almaq, məsuliyyət, səhnə, ssenari, səndələmək, sükut, matç, yeniyetmə, qarabaqara, cərimə, hakim, bədbinləşmək, badalaq;*

**Dünyamızı tanıyaq** bölməsi – *həmrəylik, bölgə, bürünc, var-gəl etmək, azarkeş, əminamanlıq, cəngavər, özünəməxsus, niqab, gicgah, inşa etmək, mənbə, memar, bünövrə, mütəxəssis, bərpa etmək, müxbir, cənab, festival, müsahib, süvari, təbil, centlmen, soyuqqanlı, mister, klub, paqoda, müqəddəs, ziyarətçi, məmnun, məbəd, ibadət;*

**Qəribə heyvanlar** bölməsi – *mamont, begemot, nəsil, morj, üzgəc, oyuq, buzlaq, delfinari, qəlsəmə, pulcuq, ağ ciyər.*

Qeyd olunan bölmədə bəzi mətnlərdəki çətin sözlərlə bağlı “Söz boğçası” verilməmişdir. Lakin hesab edirik ki, “Rikki-tikki-tavi” mətnində *çəhrayı, intiqam, şığımaq, intizar*; “Pinqvin balası” mətnində *xəyala dalmaq, qürrələnmək, gözdən qoymamaq*; “Delfin insanları nə üçün xilas edir” mətnində *varlıq, niyyət* sözləri də 3-cü sinif şagirdi üçün mənası çətin sözlərdir və onların izahına ehtiyac var.

**Təbii fəlakətlər** bölməsi – *fırtına, daşqın, yataq, tufan, püskürmək, boran, sunami, faciə, vulkan, xumarlanmaq, tir, şax, artırma, təlaşla, yeganə, löngərləmək, səviyyə, leysan, komissiya, diktor, təlatüm, estakada, nasazlıq, bal, buruq, kəskinləşmək, qasırğa, sinoptik, proqnoz, şığımaq, şahid, qamarlamaq, fəsad.*

Həmin bölmədə yer almış “İki ana” mətnindəki *quraqlıq, şimşək, vahimə, şəlalə, helikopter* sözləri ilə də bağlı “Söz boğçası”nın verilməsi məqsədəuyğun olardı.

**İxtiralar** bölməsi – *qasırğa, göz işlədikcə, zəka, mühəndis, işgüzar, diribaş, sərnişin, gözə dəymək, siferblat, gil, yosun, mexanizm, təkmilləşdirmək, köndələn, təkan vermək, texnika, bədbəxt, məhrum olmaq, qabiliyyət, qabarıq, şrift, emalatxana, istehsal, leqo, itki, dəst.*

**Unudulmaz qəhrəmanlar** bölməsi – *hökmranlıq, xidmət, məqbərə, zülümkar, şücaət, əsirlik, təltif etmək, məğlub etmək, kəşfiyyatçı, yağmalamaq, yapıncı, talamaq, öymək, sayıqlıq, handan-hana, əsir, dustaq, bahadır, yasa batmaq, bəsləmək, yabı, çəlimsiz, qulun, bəlli, hasil olmaq, qurşaq tutmaq, rəftar, əlverişli, önəmli, pənah gətirmək, himayə, satqınlıq, göydəndüşmə, şirnikləndirmək, müqavimət, başsağlığı, çərkəzi, əbədiləşdirmək, türbə, əfsanə, möhtəşəm, ərən, yağı, örüş, sayğı, əzəmət, lərzəyə gətirmək, məruzə etmək, rəşadətli, əmin olmaq, dron.*
**Odlar yurdu** bölməsi – *xəlifə, arif, boynunu vurmaq, sal daş, ilxı, maldar, tayfa, səhəng, ah-nalə, kip, didərgin düşmək, soydaş, cah-calal, duyuq düşmək, karvanbaşı, zınqırov, ecazkar, ləhləmək, mənzilbaşı, intiqam, pərən-pərən düşmək, saçmaq, qatran, əzəmətli, sıldırım.*
**Hikmət xəzinəsi** bölməsi – *hikmət, firavan, kəlam, gileylənmək, minnətsiz, əsirgəmək, alnıaçıq, baş əymək, əl açmaq, üzüağ, nəsihət, aludə olmaq, əl çəkmək, vərdiş, tərkinə almaq, qulp qoymaq, əlacı kəsilmək, kəniz, məharət, vərdiş, öyünmək, pərişan, təpəl, naxır, rübənd, rinq, tatami, kimano, nakaut, raund.*
Düçünürük ki, həmin bölmədə yer almış “Bir dəstə göyərçin” mətnindəki *pusqu, qarabaqara izləmək, ağız-ağıza vermək, müdrik, iradəni toplamaq* kimi söz və ifadələrin də izah olunmasına ehtiyac var.
Qeyd etməliyik ki, dərslikdə sözlərin izahı ilə bağlı heç bir məlumat verilmir. Ana dili üzrə fənn kurikulumuna əsasən 3-cü sinif şagirdləri kontekstdən çıxış edərək tanış olmayan sözün, frazeoloji ifadənin mənasını müəyyən etməyi; lüğətdən istifadə etməklə sözün mənasını tapmağı; sözün həqiqi və məcazi mənaları arasındakı bağlılığı aydınlaşdırmağı; mətndəki obrazlı ifadələri fərqləndirməyi və izah etməyi; bədii nümunələrdə fikrin təsirli və dəqiq ifadə olunmasında yaxınmənalı və əksmənalı sözlərin rolunu müəyyən etməyi; situasiyaya uyğun gələn atalar sözü, aforizmlər seçməyi; ümumi məna və özəl əlamətləri göstərməklə anlayışı izah etməyi bacarmalıdırlar. Sözsüz ki, şagirdlərin bu bacarıqlara birdən-birə və özbaşına yiyələnməsinə ümid etmək səhv olardı. Müəllim xüsusi priyomlarla şagirdləri mətn və tapşırıqlarda rastlaşdıqları sözlərin mənasını araşdırmağa sövq etməlidir.
3-cü sinif Azərbaycan dili dərsliyi üzrə metodik vəsaitdə müəllimlərə “Söz boğçası”ndakı sözləri izah etməklə bağlı müəyyən tövsiyələr verilir. Məsələn, “Cəmil+Mahir” mətnin oxusu zamanı şagirdlərə tanış olmayan *dəhliz, fürsət, müavin, zümzümə etmək, əl-ayağa düşmək* sözlərinin aşağıdakı kimi izah olunması məsləhət görülür:
*dəhliz* – ev qapısı ilə otaqların qapıları arasında olan uzun aralıq; koridor; *fürsət* – bir sözü demək və ya bir işi görmək üçün əlverişli an, münasib vaxt; *müavin* – rəhbəri, direktoru işdə, vəzifədə əvəz edə biləcək şəxsin rəsmi adı; *zümzümə etmək* – ahəstə səslə özü üçün dodaqaltı oxumaq;
*əl-ayağa düşmək* – narahat olmaq, həyəcanlanıb işi tez həll etməyə çalışmaq [6, s.17].
Göründüyü kimi, metodik vəsaitdə müəllimlərə sözlərin mənasının bəzən müəyyən söz qrupu, bəzən də bir neçə cümlə ilə yığcam izah etmək tövsiyə edilir. Dərslikdə də söz ehtiyatı ilə bağlı tapşırıqlarda, əsasən, mətndə rast gəlinən yeni sözlərlə onların izahlarını uyğunlaşdırmaq tələb olunur. Məsələn, dərslikdə “Piza qülləsi” mətni ilə bağlı belə bir tapşırıq verilmişdir:
B. “Söz boğçası”ndakı sözləri aşağıdakı izahlarla uyğunlaşdırın:
- Binanın əsası, təməli, özülü...(*bünövrə*)
- Əvvəlki vəziyyətə gətirmək....(*bərpa etmək*)
- Qurmaq, yaratmaq, tikmək...(*inşa etmək*)
- Bir məlumatın alındığı yer, sənəd....(*mənbə*)
- Tikintinin layihəsini hazırlayan şəxs ...(*memar*) [4, s.43]

Dərslikdə lüğət ehtiyatının zənginləşdirilməsi ilə bağlı ikinci qəbildən olan çalışmalar mətnin məzmununa əsasən sözlərin izah edilməsi ilə bağlıdır. Məsələn, dərslikdə “Bura vətəndir” mətni ilə bağlı aşağıdakı tapşırıq verilmişdir:

B. Mətnin məzmununa əsasən *pilot, dron, proqramçı* sözlərini izah edin [5,s.53]
Və ya "Qaraca çoban" mətni ilə bağlı:
B. Mətnə və şəklə əsasən *sapand* sözünün mənasını izah edin [5,s.35]
Sözsüz ki, kontekstə istinad etmək əksər hallarda sözün mənasını başa düşməyə imkan yaradır və bu baxımdan mətndən həmin söz olan parçanın oxunması da sözün mənasının başa dülməsində səmərəli nəticə verə bilər.
Yeni sözlərlə onların izahının uyğunlaşdırılması, mətnin məzmununa əsasən sözün daşıdığı mənanın dəqiqləşdirilməsi lüğətin zənginləşdirilməsində düzgün metodlardan olsa da, yeganə yol deyil. Sözlərin izahında hər zaman eyni metoddan istifadə şagirdlərin dərsə marağını azalda bilər. 3-cü sinif dərsliyinin "Söz boğçası" rubrikalarında verilmiş sözlərin mənasının izahı ilə bağlı çalışmaların eynitipli olmasını və metodik tövsiyələrin azlıq təşkil etdiyini nəzərə alaraq, ibtidai sinif müəllimlərinə kömək məqsədilə müəyyən iş növləri üzərində dayanmağı lazım bildik.
Bəzən oxu mətnində rastlaşdığı söz şagirdə tanış olmadıqda həmin sözün adlandırdığı əşyanın və ya onun şəklinin, maketinin şagirdlərə göstərilməsi məzmunun qavranılmasını asanlaşdırır, mənanın anlaşılmasına yardım edir. Bu səbəbdən oxunan mətndəki yeni sözlərlə bağlı sinfə natural əşyaların, şəkillərin, yeri gəldikcə, müqəvvaların gətirilməsi şagirdlərə məzmunu dərindən mənimsəməyə kömək edir. Məsələn, dərslikdəki *səhəng, zınqırov, kimano* sözlərini izah etmək üçün müvafiq əşya və ya şəkillərin nümayiş etdirilməsi şagirdlər tərəfindən mənanın anlaşılmasını asanlaşdıra bilər.
Tanış olmayan sözlərin mənasının sinonim və ya antonimlərinin köməyi ilə izah edilməsi də səmərəli yollardandır və şagirdlərdə danışıq zamanı yersiz təkrarlara yol verməmək, sözün məna çalarlarına həssaslıqla yanaşmaq bacarığı formalaşdırır. Məsələn, ibtidai sinif müəllimi "Aldədə əfsanəsi"ni keçərkən *ilxı* sözünü mənaca yaxın *sürü, arif* sözünü *ağıllı*; "Bura vətəndir" mətnini keçərkən *yağı* sözünü *düşmən*, *sayğı* sözünü *hörmət*, *örüş* sözünü *otlaq, ərən* sözünü *qoçaq, igid*; "Qaraca çoban" mətnini keçərkən *yağmalamaq, talamaq* sözlərini *əlindən almaq, soymaq*, *öymək* sözünü *tərifləmək*; "Ağ atlı oğlan" mətnini keçərkən *çəlimsiz* sözünü *arıq, zəif*; *qulun* sözünü *at*, *qurşaq tutmaq* ifadəsini *güləşmək* ifadələrinin köməyi ilə izah edə bilər.
Sözün izahında antoniminin yada salınması yolu da səmərəli iş növlərindəndir. Məsələn, III sinif dərsliyinin "Söz boğçası" rubrikasında yer almış *qanı qaralmaq* ifadəsini şagirdlərə yaxşı tanış olan *sevinmək* sözü ilə; *ağzına su almaq* ifadəsini *danışmaq* sözü ilə; *soyuqqanlı* sözünü *mehriban* sözü ilə; *köndələn* sözünü *düz* sözü ilə qarşılaşdıraraq şagirdlərə anlatmaq olar.
Dərslikdə rast gəlinən bəzi sözlərin izahı üçün etimoloji təhlilini vermək də faydalı olur. Lakin təcrübə göstərir ki, müəllimlər bu səmərəli iş növündən, demək olar ki, istifadə etmirlər. Prof.B.Əhmədov yazır: "Əgər uşaqların əlində ərəb mənşəli sözlərin bir-birindən necə törəməsinə aid lüğət olsa idi, onlar başa düşərdilər ki, *hökm, hakim, məhkum, ehkam* tipli sözlər eyni kökdən düzəlmişdir. Belə olduqda isə həmin sözlərin mənası çox asan dərk edilərdi". Prof.Y.Kərimov ibtidai məktəbdə lüğət işinin aparılması üçün sözlərin seçilməsi prinsiplərindən biri kimi "Sözün morfoloji və ya etimoloji təhlil aparılması imkanının nəzərə alınması" prinsipini qeyd edir [7, s.104]. Bu, alimin lüğət üzrə işdə etimoloji təhlildən istifadəyə önəm verdiyini sübut edir. Məsələn, şagirdlər dərslikdə tarixi şəxsiyyətlərlə bağlı oxu mətnlərində *mütəfəkkir* sözü ilə rastlaşdıqda, müəllim həmin sözün mənşəcə ərəb dilindən olan *təfəkkür, fikir* sözləri ilə eyniköklü olduğunu izah etməlidir. Başa salmalıdır ki, sözün əvvəlindəki *-mü* hissəciyi isə sözdüzəldici vasitə kimi çıxış edir. Və dərslikdə "Fərd və toplum" bölməsində rast gəldikləri *müavin*; "Dünyamızı tanıyaq" bölməsindəki *mütəxəssis, müxbir, müsahib, müqəddəs;* "İxtiralar" bölməsindəki *mühəndis*; "Unudulmaz qəhrəmanlar" bölməsindəki *müqavimət;* "Hikmət xəzinəsi" bölməsindəki *müdrik* sözləri də bu hissəcik vasitəsilə düzəlmişlər.

Bəzən sözün mənasını tərkibinə görə təhlil etməklə də müəyyənləşdirmək olur. Bunun üçün müəllim şagirdlərdən sözü kök və şəkilçiyə ayırmağı və hansı sözdən yarandığına diqqət etməyi təklif edir. Məsələn, 3-cü sinif dərsliyində “Söz boğça”sında verilmiş *buzlaq, maldar, daşqın, soydaş* və s. sözləri müəllim tərkibinə ayırmaqla aşağıdakı kimi izah edir:
*Buzlaq – buz* sözündən yaranıb, çoxlu buz yığılan yer mənasını ifadə edir.
*Maldar – mal (iribuynuzlu heyvan)* sözündən yaranıb; ev heyvanları saxlamaqla məşğul olan kəndliyə deyilir.
*Daşqın – daşmaq* sözündən yaranıb; çay və ya dəniz suyunun daşıb qurunu, ətrafı basması mənasını ifadə edir.
*Soydaş – soy (əsil, əcdad)* sözündən yaranıb; bir soydan, bir nəsildən, bir kökdən olan adamlara deyilir.
Əfsuslar olsun ki, bəzi sözlərin rus dilindəki variantı bir çox insanların nitqində möhkəm yer tutduğuna görə sözlərin izahında bəzən rus dilində olan ekvivalentinin yada salınması metoduna da müraciət etmək lazım gəlir. Yuxarıda gördüyümüz kimi, hətta 3-cü sinif müəllimlər üçün metodik vəsaitdə də bu metoda müraciət edilmiş, *dəhliz* sözü *koridor* sözü vasitəsilə izah edilmişdir. Qeyd etməliyik ki, bu iş növü dilimizin lazımsız alınmalarla pozulmasına yol açdığı üçün mütəmadi istifadəsinə yol verilməməlidir. Məsələn, 3-cü sinif dərsliyində “Fərd və toplum” bölməsində *cərimə, hakim* sözlərini *ştraf, sudya*; “Dünyamızı tanıyaq” bölməsində *azarkeş, bünövrə, mühasib, təbil* sözlərini *baleşik, fundament, buxalter, baraban*; “İxtiralar” bölməsində *mühəndis, dəst* sözlərini *injener, nabor* sözlərini yada salmaqla izah etmək olur.
İbtidai sinif müəllimi dərslikdə rast gəlinən yeni söz və anlayışların məzmununun məntiqi çalışmalar vasitəsilə açılmasını da təşkil edə bilər**.** Bu çalışmalar:

- ➢ bu və ya digər əşyanın (hadisənin) xarakterik əlamətlərinin dəqiqləşdirilməsi;
- ➢ mətndən qəhrəmanı xarakterizə edən sözlərin seçilməsi və həmin sözlər əsasında qəhrəmanın xarakteristikasının verilməsi, onun başqa obrazlarla müqayisə edilməsi;
- ➢ anlayışa xas əlamətlərin ümumiləşdirilməsi və sistemləşdirilməsi üzərində qurula bilər.

Məsələn, bu gün 3-cü sinifdə şagirdlərə ədəbiyyatşünaslıq üzrə bir sıra termin və anlayışların mənimsədilməsi nəzərdə tutulur. Müəllim oxu dərslərində şagirdlərə *epizod, ssenari, qafiyə, ritm, dastan, rəvayət, əfsanə, təmsil, lətifə, aforizm* və s. anlayışları müqayisə etməyi, hər birinə xas olan xarakterik cəhətləri sadalamağı tapşıra bilər. Hətta bu məqsədlə müəllim “Binqo” oyunu da keçirə bilər. Müəllim şərtləri izah etmək üçün “loto” oyununu şagirdlərin yadına salır və bildirir ki, sadəcə lotodan fərqli olaraq bu oyunda aparıcı torbadan rəqəm yazılmış daşlar yox, üzərində müəyyən filoloji termin və anlayışları təsvir edən cümlələr yazılmış dörd bükülü kağızlar çıxaracaq. Məsələn: “Mətndə müəyyən bir hadisə ilə bağlı bitkin hissə” (*epizod*); “Şeir misralarının sonunda oxşar səslənən hissə” (*qafiyə*); “Misralarda heca sayının eyni olması” (*ritm*); “Bəzi hadisə və varlıqlarla bağlı uydurulmuş möcüzəli əhvalatlar” (*əfsanə*), “Müdrik şəxslərin qısa, dərin mənalı fikirləri” (aforizm) və s. Oyunçuların qarşısına isə həmin anlayışları ifadə edən sözlər yazılmış loto kartları qoyulur. Oyunun gedişatında aparıcı torbadan kağızı çıxarır, bu və ya digər anlayışı təsvir edən cümləni oxuyur və şagirdlər izahın nə ilə bağlı olduğunu anlayaraq, qarşılarındakı kartda həmin anlayışı ifadə edən sözün üstündən xətt çəkirlər. Kimin kartında bir sıra tez dolarsa (lotoda olduğu kimi), o, “Binqo” deyərək, qalib olduğunu elan edir. Bu oyunu müxtəlif əşya və hadisələr (anlayışlar) üçün xarakterik əlamətlərin seçilməsi, sadalanması, təsvirinin verilməsi məqsədilə təşkil etmək olar.
Bədii mətndən qəhrəmanı xarakterizə edən sözlərin seçilməsi, həmin sözlər əsasında qəhrəmanın xarakteristikasının verilməsi, onun başqa obrazlarla müqayisə edilməsi də şagirdlərin lüğətinin zənginləşməsində böyük rol oynayır. Məsələn, III sinif dərsliyində “Ağ atlı oğlan” hekayəsi verilmişdir [5,s.42-43]. Müəllim şagirdlərə “Obrazların xəritəsi” metodundan istifadə edərək mehtər

oğlu Nərbalanın xarakterini ifadə edən sözləri yazmağı, onun başqa obrazlarla (padşah, Xanbala, Bəybala) müqayisəli təhlilini aparmağı tapşıra bilər. Bu, şagirdlərin lüğətini insanlara xas müsbət və mənfi keyfiyyətləri ifadə edən sözlərlə zənginləşdirməyə imkan verər. Təcrübə göstərir ki, şagirdlərə: “*Nərbala (padşah) necə obrazdır?*” sualı verərkən, onların əksəriyyəti sadəcə “*yaxşı obrazdır*” və ya “*pis obrazdır*” ifadələri ilə cavab verirlər. Həmin “yaxşı” və “pis” ifadələrinin altında yatan məqamları açmaqda, insanlara xas müsbət və mənfi keyfiyyətləri (*vətənpərvər, torpağa bağlı, mərhəmətli, cəsur, qorxmaz, məğrur, sədaqətli, vəfalı, kobud, lovğa, qəddar, daşürəkli, zalım, kibrli, ədalətsiz, təkəbbürlü* və s.) sadalamaqda çətinlik çəkirlər.

Anlayışa xas əlamətlərin ümumiləşdirilməsi və sistemləşdirilməsi üzərində qurulan məntiqi çalışmalar da lüğət üzrə işdə önəmli rol oynayır. Məsələn, oxu materiallarına əsasən ayrı-ayrı fəsillərin, ev və vəhşi heyvanların əlamət və fərqli xüsusiyyətlərinin ümumiləşdirilməsi, sistemləşdirilməsi bu çalışmalara nümunə ola bilər. Təcrübə göstərir ki, bəzən müəllimlər hər hansı bir fəslə aid mətn və ya şeir keçərkən həmin fəslin spesifik xüsusiyyətləri ilə bağlı yığcam sual-cavab apararaq əsas diqqəti mətnin nəqlinə, şeirin əzbərlənməsinə yönəldirlər. Lakin burada mətnin nəql edilməsinə nail olmaqla yanaşı, həmin fəslə aid şagirdlərin biliklərini sistemləşdirmək, uşaqlarda fəslin səciyyəvi xüsusiyyətlərini başqa fəsillərlə müqayisədə sadalamaq, əsas əlamətləri ayırmaq və ümumiləşdirmək, həmin fəsildə insanların, heyvanların və quşların həyatında baş verən dəyişikliklərə dair verilən sualları cavablandırmaq bacarıqlarını formalaşdırmaq da vacibdir.

Lüğət üzrə işdə oxu mətnlərinin dilinin müşahidə və təhlili əsasında aparılan**,** şagirdlərdə sözün leksik zənginliyi haqqında təsəvvürlər yaradan, nitq paktikasında lazımi məqamda, dəqiq istifadəsinə yol açan leksik-üslubi çalışmaların da əhəmiyyəti böyükdür. Butipli çalışmalar şagirdlərdə dilimizin leksik zənginliyi – sinonimlər, omonimlər, antonimlər, çoxmənalı sözlər, frazeoloji birləşmələr, terminlər və s. haqqında təsəvvür yaradır. Sinonimlərlə bağlı çalışmalar şagirdlərin lüğətini zənginləşdirməklə yanaşı, həm də dəqiqləşdirir – fikri daha sərrast ifadə etməyə, yersiz təkrarlardan qaçmağa imkan verir.

Oxu mətnlərinin dili üzərində müşahidə təşkil edərkən, şagirdlərə orada bir-birinə sinonim olan sözlər tapmaq tapşırığı verməyə ehtiyac yoxdur, onları mətndəki bu və ya digər sözə sinonim axatarışına cəlb etmək də faydalıdır. Çünki bu qəbildən olan tapşırıqlar şagirdlərin idrak fəallığını yüksəldir. Məsələn, 3-cü sinif dərsliyinin “Təbii fəlakətlər” bölməsində şagirdlər *çovğun*, *tufan, boran, qasırğa, fırtına* sözləri ilə rastlaşırlar. Müəllim həmin sözləri izah etmək üçün onlarla bağlı tərtib etdiyi cədvəl üzrə iş apara bilər:

| Sinonimlər | Ümumi leksik mənaları | Sinonim cərgəsindəki sözlərin konkret leksik mənaları |
|---|---|---|
| *Tufan* | *Şiddətli külək* | *Şiddətli küləkli qar və ya yağış* |
| *Çovğun* | | *Güclü küləyin qarı sovurduğu hava* |
| *Boran* | | *Burulmaq sözü ilə bağlıdır. Burula-burula öz işini görən hava, çovğun, yağış* |
| *Qasırğa* | | *Ardı kəsilmədən fırlanıb havaya qalxan çox şiddətli iti külək* |
| *Fırtına* | | *Güclü küləkdə dənizin şiddətlə dalğalanması* |

Şagirdlərin lüğət ehtiyatının zənginləşirilməsi baxımından əksmənalı sözlər üzərində qurulmuş atalar sözləri ilə bağlı iş aparmaq da faydalıdır. 3-cü sinif dərsliyində bu cür atalar sözlərinə az da olsa, rast

gəlmək olur: ***Bu gün**ün işini **sabah**a qoymazlar* [4,s.10]; *Aslanın **erkəyi, dişisi** olmaz* [5,s.33]; ***Çox** yemək adamı **az** yeməkdən də qoyar* [5, s.88]; ***Ağıllı** düşmən, **axmaq** dostdan yaxşıdır* [5, s.89].

Bununla bağlı dərslikdə verilmiş çalışmalardan biri maraq doğurur. Burada şagirdlərdən atalar sözündə yeri səhv düşmüş əksmənalı sözləri müəyyənləşdirmək tələb olunur:

*1. **Yaxşı** günə səbr edən, **yaman** günə tez çatar*
*2. **Qışda** işlə, **yayda** dişlə.*
*3. **Gündüz**ün xeyrindən **axşam**ın şəri yaxşıdır.*
*4. **Əkmək** üçün **biçmək** lazımdır.*
*5. **Vətən** cənnət olsa da, yenə **qürbət** yaxşıdır.*

Butipli çalışmaların müsbət tərəfi ondadır ki, şagirdləri yalnız əksmənalı sözləri öyrənməyə və ya atalar sözünü əzbərləməyə deyil, həm də atalar sözündə ifadə olunan məna üzərində düşünməyə, orada ifadə olunan hikməti anlamağa sövq edir.

Müəllim yeri gəldikcə, mətn və çalışmalardakı omonim sözlərin üzərində də dayanmalı və onların mənasının anlaşılmasına nail olmalıdır. Məsələn, müəllim III sinifdə “Cəmil və Mahir” [4,s.12] mətnində şagirdlərin diqqətini *yaz, mürəkkəb, kök*; “Yeni dostlar” [4,s.26] mətnində *qol, top, sağ, düz*; “Həmrəylik” [4,s.29] mətnində *təmsil, bal*; “Piza qülləsi” [4,s.49] mətnində *inşa;* “Səksən gün dünya ətrafında” [4,s.50] mətnində *üz, yol, biz*; “Rikki-tikki-tavi” [4,s.66] mətnində *çay, bağ;* “Təbii fəlakətlər” [4,s.80] şerində *göy, qan, dağ*; “Xilaskar” [4,s.82] mətnində *dolu, tut* və s. cəlb etməli, həmin sözləri fərqli mənalarda cümlədə işlətmələrinə imkan yaratmalıdır. Şagirdlərə həmin sözlərin fərqli mənalarda işlədildiyi cümlələr təqdim etməklə, hansı cümlədəki mənanın mətndəki məna ilə üst-üstə düşdüyünü soruşmaq da olar. Məsələn, şagirdlərə: *Yağan dolu kənd təsərrüfatına ziyan vurdu; Otağa bir qədər dolu xanım daxil oldu; Qızlar çiyinlərinə su dolu səhəngi alıb kəndin ayağına endilər* cümlələrindən hansında *dolu* sözünün “Xilaskar” mətnindəki məna ilə eyniyyət təşkil etdiyini müəyyənləşdirməyi tapşırmaq olar. Bu, həm şagirdlərin lüğətinin zənginləşməsinə, həm də oxunun şüurluluğunun təmin olunmasına kömək edər.

Müəllimin 3-cü sinif dərsliyindəki çoxmənalı sözlər və frazeoloji birləşmələr üzrə iş aprması da şagirdlərdə dilə, sözə həssas münasibətin tərbiyə olunmasına kömək edir. Məsələn, III sinif dərsliyinin “Söz boğça”larında şagirdlər *göz işlədikcə, gözə dəymək, yasa batmaq, hasil olmaq, qurşaq tutmaq, pənah gətirmək, lərzəyə gətirmək, boynunu vurmaq, didərgin düşmək, duyuq düşmək, pərən-pərən düşmək, baş əymək, əl açmaq, aludə olmaq, əl çəkmək, qulp qoymaq, əlacı kəsilmək* və s. ifadələr ilə rastlaşırlar. Bu zaman müəllim müxtəlif səpgili çalışma növlərindən – oxuduqları mətndən çoxmənalı sözləri (frazeoloji birləşmələri) seçib dəftərə köçürmək, mənasını izah etmək, mətndə onları sinonimi, ekvivalenti olan söz və ya söz birləşməsi ilə əvəz etmək, başqa bir cümlədə (mətndə) işlətmək və s. istifadə edə bilər.

3-cü sinif dərsliyində şagirdlərin bənzətmələrlə tanış edilməsi nəzərdə tutulur. Şagirdlərin bədii ifadə vasitələri ilə tanışlığı fikrin daha qabarıq ifadəsində onların rolunu dərk etmələrinə kömək edir. Müəllim bu və ya digər bədii mətn üzərində şagirdlərin müşahidəsini təşkil etməklə dilimizin obrazlılığına diqqət tərbiyə edir. Uşaqlar dərk edirlər ki, bədii obraz müəyyən bədii vasitələrin köməyi ilə yaradılır. Prof.N.Cəfərova yazır: “Bədii mətnlərin oxusu zamanı şagirdlərin diqqəti mətndəki obrazlı söz və ifadələrə yönəldilməli, orada bu və ya digər əşya, hadisənin hansı bədii ifadələrlə və necə təsvir edilməsi üzərində iş aparılmalıdır” [3,s.368].

3-cü sinif dərsliyinin ikinci hissəsinin 64-cü səhifəsində “Yadda saxla” rubrikasında şagirdlərə bənzətmə haqqında qısa nəzəri məlumat verilir və “altından xətt çəkilmiş sözləri uyğun ifadələrlə (bənzətmələrlə) əvəz etmək”, “bənzəyən və bənzədiləni uyğunlaşdırmaqla cümlələri tamamlamaq”, “cümlələri köçürüb, oradakı bənzəyən və bənzədilənlərin altından xətt çəkmək”lə bağlı üç tapşırıq

təqdim edilir [5, s.64]. Həmçinin oxu mətnlərində çoxsaylı bənzətmələr, epitetlər və s. bədii təsvir və ifadə vasitələri ilə bağlı nümunələr yer alır. Məsələn, III sinif dərsliyində təbii fəlakətlərlə bağlı tapmacalarda *güllə kimi yayılan külək* [4, s.80], *çox vaxt quzutək mışıl-mışıl yatan vulkan* [4,s.81]; “Dənizdə fırtına” mətnində *firfira kimi yerində fırlanan qayıq* [4,s.93] və s. ifadələrə rast gəlmək olur. İbtidai siniflərdə şagirdlərə bədii ifadə vasitələri ilə bağlı dərin biliklərin verilməsi nəzərdə tutulmasa da, müəllim oxu mətnlərində həmin sözlərlə rastlaşdıqda şagirdlərin diqqətini cəmləməli, onlarla bağlı iş aparmalıdır. Dərslikdə bununla bağlı çalışmaların azlığını nəzərə alaraq müəllim özü də müəyyən tapşırıqlar tərtib edə bilər.
Məsələn:
**Çalışma.** Boşluqlara uyğun sözü yazın.
*Uşağın bədəni qorxudan ..... əsirdi.*
A) Yarpaq kimi
B) Külək kimi
C) Dəniz kimi
**Çalışma.** Verilmiş bənzətmələri cümlələrə uyğunlaşdıraraq yazın.
*gül kimi, buz kimi, daş kimi*
*1. Onun ürəyi........ soyuqdur.*
*2. Hər tərəf......... ətir saçırdı .*
*3. Qocanın əlləri torpaq belləməkdən ....... bərkimişdi.*
**Çalışma.** Aşağıdakı bənzəyənləri boşluqlara yazaraq cümləni tamamlayın.
*Ana ceyran, Səbinənin yanaqları, Məstanın gözləri*
*1........... alma kimi qıpqırmızı idi.*
*2. ........ quş kimi uçurdu.*
*3. .......... muncuq kimi parıldayırdı.*
**Çalışma.** Verilmiş cümlələrdə bənzəyən və bənzədiləni müəyyənləşdirərək cədvəlin müvafiq xanalarına yazın.

| Cümlələr | Bənzəyən | Bənzədilən |
|---|---|---|
| *Xırda daşlar qayanın başından sel kimi tökülürdü.* | *.....(daşlar)* | *.....(sel)* |
| *Əsrlərdən bəri quzutək yatan vulkan birdən püskürdü.* | *.....(vulkan)* | *.....(quzu)* |

Bədii ifadə vasitələrinin mahiyyətini anlamaları üçün, şagirdlər, hər şeydən əvvəl, sözün həqiqi və məcazi mənalarda işlənməsi ilə bağlı aydın təsəvvürlərə sahib olmalıdırlar. Çünki bədii ifadə vasitələrinin yaranmasının kökündə sözün məcazlaşma hadisəsi durur. Sözün məcazi mənada işlədilməsi bədii əsərə emosionallıq; hadisə, əhvalatla bağlı danışığa poetik itilik gətirir, fikrin bədii təsir gücünü artırır. Prof.R.Yusifoğlu bədii əsərlərdə bədii təsvir vasitələrinin əhəmiyyətini vurğulayaraq yazır: “Hər hansı bir sənət əsərinə, abidəyə vurulan naxışlar, ornamentlər ona gözəllik gətirdiyi kimi, bədii əsəri də gözəlləşdirən epitetlər, təşbehlər, metaforalar, metonimiyalar, mübaliğələr və s. bu kimi məcazlardır”.
Artıq III sinifdə şagirdlər öyrənirlər ki, “sözün əvvəl yaranmış mənası onun həqiqi, bənzətmə əsasında sonradan yaranmış mənası isə onun məcazi mənasıdır” [5,s.68]. Bədii təsvir vasitələri də məcazlaşma hadisəsinə əsasən yarandığına görə şagirdləri öncə sözlərin həqiqi və məcazi mənada işlədilməsi, yaranan mənanın izah edilməsi üzrə məşq etdirmək lazımdır (*yumşaq yastıq - yumşaq xasiyyət*).

Yalnız bundan sonra oxu mətnindən obrazlı ifadələrin (və ya ümumiyyətlə məcazi mənada işlədilən sözlərin) seçilməsi, onun başqa ifadə ilə əvəz edilərək müqayisə edilməsi, həmin ifadələrin izahı, nəqletmə zamanı (esse, inşa yazarkən) istifadə edilməsi, verilmiş hər hansı bir sözə obrazlı ifadələrin seçilməsi (məsələn: *dəniz – hirsli (qəzəbli), narahat, çılğın*), sözlərlə “şəklinin çəkilməsi” (*Sən hirsli (qəzəbli, narahat, çılğın) dənizi necə təsvir edərdin?)* və s. iş növlərindən istifadə etmək olar.
Qeyd etməliyik ki, dərslikdə bəzi tapşırıqların şərtində korrektələr edilməsinə ehtiyac duyulur. Məsələn, 37-ci səhifədə (1-ci hissə) şagirdlərə söz və anlayış haqqında məlumat verilir. Və deyilir ki, hər söz müəyyən anlayış ifadə edir. Yəni, anlayış dedikdə hər hansı varlıq, hərəkət, əlamət, say və s. nəzərdə tutulur. Sonra Ç çalışmasının şərtində verilir: “*Bir-birinə yaxın anlayışları bildirən sözləri qarşı-qarşıya yazın: xeyli, gözəl, çox, demək, hasar, çəpər, söyləmək, qəşəng”*. Həmin sözlər bir-birinə yaxın anlayışları deyil, eyni anlayışları ifadə edir. Deməli, çalışmanın şərti belə dəyişilməlidir: “*Bir (və ya eyni) anlayışı ifadə edən yaxınmənalı sözləri qarşı-qarşıya yazın”.*
**Sonuç ve öneriler.** Nəticə olaraq, qeyd etməliyik ki, III sinif şagirdlərinin lüğətinin zənginləşdirilməsi baxımından dərsliyin imkanlarının təhlili göstərdi ki, sadalanan çatışmazlıqlar nəzərə alınmazsa, ümumilikdə dərslik şagirdlərin əqli fəallığını təmin etmək və onlarda leksik bacarıqlar formalaşdırmaq üçün müəyyən qədər material verir. Burada əsas məsuliyyət ibtidai sinif müəlliminin üzərinə düşür. İbtidai sinif müəllimi fənn kurikulumunda qeyd olunan və III sinfin sonunda reallaşdırılması zəruri olan təlim nəticələrinə nail olmaq, şagirdlərin müvafiq kompetensiyalara yiyələnməsini təmin etmək üçün metodik səriştəliliyini təkmilləşdirməli, dərslikdəki materialların yetərli olmadığı anlarda əlavə mənbələrə müraciət etməli, müxtəlif səpgili tapşırıqlar hazırlamalı, dərsi müasir tələblər səviyyəsində qurmalıdır .

**Kaynaklar:**

1. Axundov A.A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Elm, 2005, 452 s.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fənn kurikulumları (I-IV siniflər). Bakı: Mütərcim, 2008, 495 s.
3. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, “Elm və təhsil”, 2015, 412 s.
4. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Cəlilova K. Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik (1-ci hissə). Bakı: “Radius” MMC, 2022, 103 s.
5. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Cəlilova K. Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik (2-ci hissə). Bakı: “Radius” MMC, 2022, 103 s.
6. İsmayılov R., NurullayevaÜ., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Cəlilova K. Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: “Tuna” QSC, 2022, 223 s.
7. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: “Səda”, 2013, 552 s.
8. Qurbanov V. Oxu və nitq inkişafı təlimi. Bakı: “Müəllim” nəşriyyatı, 2021,126 s.